# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Neft məhsullarının qüvvədə olan aksiz dərəcələrinin səviyyəsinin dəyişdirilməsi barədə

# Qərar № 1

***Bakı şəhəri, 6 yanvar 2007-ci il***

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin respublika daxilində neft məhsullarının qiymətlərinin və onların satışından dövlət büdcəsinə daxilolmaların tənzimlənməsi barədə razılaşdırılmış təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasında istehsal olunan və satılan neft məhsullarına 2007-ci il 8 yanvar tarixindən aşağıdakı aksiz dərəcələri tətbiq edilsin:

| Sıra №-si | Neft məhsullarının adı | Aksiz vergisinin dərəcəsi (faizlə) |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | Avtomobil benzini Aİ-95 | 64,0 |
| 2. | Avtomobil benzini Aİ-92 | 65,0 |
| 3. | Avtomobil benzini Aİ-80 | 66,0 |
| 4. | Dizel yanacağı | 18,0 |
| 5. | Reaktiv mühərrik yanacağı | 9,0 |
| 6. | Nafta (ilkin emal benzini) | 13,0 |
| 7. | Maye qaz | 22,0 |
| 8. | Mühərrik yanacağı (DT-36) | 24,0 |
| 9. | Mühərrik yanacağı (DT-20) | 31,0 |
| 10. | Soba mazutu | 3,0 |
| 11. | Bitum ( BN-60/90, BNB-60/70) | 11,0 |
| 12. | Bitum (MQO) | 34,00 |
| 13. | Bitum (BNV, BNB- 70/30, BNB-85/25) | 31,00 |
| 14. | Ağ neft (KO-20) | 32,00 |
| 15. | Qaz benzini | 37,00 |
| 16. | Mühərrik yağı (M-12VB, M-14V2) | 52,00 |
| 17. | Sənaye yağları (İ-12A, İ-20V, İ-40A, İ-8B1, İ-30V) | 72,00 |
| 18. | Turbin yağları (T-22, T-30, T-46) | 39,00 |
| 19. | Transformator yağı (T-1500) | 54,00 |
| 20. | Digər yağlar (AK-15, S-11, XM-6, K-12, K-19, VM-4) | 56,00 |
| 21. | Koks (KT-A) | 19,00 |
| 22. | Koks (KT-T) | 19,00 |

| | | |
|---|---|---|
| 23. | Koks (KT-Q) | 18,00 |

2. «Neft məhsullarının qiymətlərinin respublika daxilində tənzimlənməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 1 noyabr tarixli, 165 nömrəli qərarının 1-ci bəndi və «Neft məhsullarının qiymətlərinin respublika daxilində tənzimlənməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 1 noyabr tarixli, 165 nömrəli qərarına dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli, 15 nömrəli qərarının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli, 178 nömrəli qərarı ilə təsdiq edilmiş «Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 4-cü bəndinə *«Maye qaz»* sözlərindən sonra *«(topdansatış)»* sözü əlavə edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***14 mart 2007-ci il tarixli, 51 nömrəli; 2 dekabr 2013-cü il tarixli, 333 nömrəli; 6 fevral 2014-cü il tarixli, 35 nömrəli Qərara əsasən əlavələrlə***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 yanvar 2007-ci il, № 1, maddə 45)***